UOT 159.9

***Günəş Əli qızı Əfəndiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi psixologiya kafedrasının baş müəllimi*

## ŞƏXSİYYƏT ANLAYIŞI VƏ ONUN SOSİAL-PSİXOLOJİ MAHİYYƏTİ

***Гюнешь Али гызы Эфендиева***
*старший преподаватель кафедры общей психологии*
*Азербайджанского Государственного Педагогического Университета*

## ПОНЯТИЕ ЛИЧНОСТИ И ЕЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ СУЩНОСТЬ

***Gunash Ali Afandiyeva***
*senior lecturer of the department of General psychology at the*
*Azerbaijan State Pedagogical University*

## THE CONCEPT OF PERSONALITY AND ITS SOCIO-PSYCHOLOGICAL ESSENCE

**Xülasə.** Şəxsiyyət problemi, onun formalaşmasının və inkişafının sosial-psixoloji məsələləri psixologiya üçün daim aktual mövzu olmuşdur. Psixologiyada "İnsan" anlayışı ilə bərabər fərd, fərdilik, şəxsiyyət anlayışlarından tez-tez istifadə olunur. Məqalədə göstərilir ki, şəxsiyyət anlayışını təhlil etməklə, bu məsələləri ətraflı öyrənmək olar.
***Açar sözlər:*** *şəxsiyyət, fərd, struktur, davranış, fərdiyyət, keyfiyyət, insan, fəaliyyət*

**Резюме.** Проблема личности, социально-психологические вопросы ее формирования и развития всегда были актуальной темой для психологии. В психологии наряду с понятием «Человек» часто используются понятия индивид, индивидуальность, личность. В статье показано, что эти вопросы можно детально изучить, проанализировав понятие идентичности.
***Ключевые слова:*** *личность, индивидуум, структура, поведение, индивидуальность, качество, человек, деятельность*

**Summary.** The problem of personality, the socio-psychological issues of its formation and development have always been an actual topic for psychology. In psychology, along with the concept of "Person", the concepts of individual, individuality, personality are often used. The article shows that these issues can be studied in detail by analyzing the concept of identity.
***Key words:*** *personality, individual, structure, behavior, individuality, quality, person, activity*

"Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərindən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə, şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu, bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir" (1, s. 157). Şəxsiyyət anlayışının mahiyyətini başa düşmək üçün insan anlayışını əsas anlayış kimi qəbul etmək lazımdır. Şəxsiyyətin formalaşmasında insanların motivləri, tələbatları, məqsədləri, arzu və istəkləri, ustanovkaları, fəaliyyət üsul və tərzləri, həyat mövqeləri mühüm rol oynayır. Bütün bu amillər insanın, fərdin mühitə və özünə şüurlu münasibət səviyyəsini tədricən artırır. Nəticədə insan, fərd cəmiyyətdə aktiv, şüurlu varlığa çevrilir. Şəxsiyyət ictimai mühitin təşəkkülü, formalaşması və inkişafı nəticəsində yaranmışdır. Şəxsiyyətin ən mühüm keyfiyyətlərindən biri onun fərdiyyətçiliyidir. Hər bir şəxsiyyət özünəməxsus keyfiyyətlərə malikdir. Ona görə də şəxsiy-

yət təkrarolunmaz və mürəkkəb varlıqdır. Şəxsiyyətin belə mürəkkəbliyini və rəngarəngliyini psixoloqlar onun fəaliyyətində təzahür edən üç blokla əlaqələndirirlər. Bu bloklar aşağıdakılardır:

1. Şəxsiyyətin mühitə münasibətlər sistemi - şəxsiyyətin istiqamətlənməsi;
2. Şəxsiyyətin işi hansı səviyyədə icra etmə imkanları;
3. Şəxsiyyətin fəaliyyət stili-işi icra tərzləri.

Bu blokların qarşılıqlı fəaliyyəti nəticəsində şəxsiyyətin fərdiyyətçilik bacarığını müəyyənləşdirmək, yaradıcılıq imkanlarını qabaqlamaq, tapşırılan işi necə və nə üçün edə biləcəyini irəlicədən öyrənmək mümkündür.

Psixologiyada insanı şəxsiyyət kimi qiymətləndirərkən, onun sosial tərəfi ön plana çəkilir. Şəxsiyyət anlayışı sosial hadisə kimi K. Marks tərəfindən geniş izah edilmişdir. O qeyd edirdi ki, "Şəxsiyyətin məzmununu onun dərisi, qanı, mücərrəd fiziki təbiəti deyil, onun sosial keyfiyyətləri təşkil edir." Şəxsiyyət və onu başqa insanlardan ayıran insanın davranışının xüsusiyyətləri onun inkişafının və həyat təcrübəsinin müxtəlif mərhələlərində formalaşır. K. Levinə görə, "şəxsiyyət onu əhatə edən əşyalar arasında psixoloji sahədə yaşayır və inkişaf edir" (2, s. 273). Bir insanın həyatda qazandığı ən böyük nailiyyət onun təcrübəsidir. "Şəxsiyyətin formalaşması prosesi hər hansı bir layihə, yaxud plan üzrə həyata keçirilmir. Eyni bir şəraitə, eyni bir ailədə müxtəlif xarakterlərə malik olan şəxsiyyətlər formalaşa bilər. Bütün bunlar isə onu göstərir ki, ümumiyyətlə, inkişafın amili kimi ancaq xarici mühit haqqında danışmaq olmaz, şəxsiyyətin formalaşmasının fərdi şəraitini aydınlaşdırmaq lazımdır" (3, s. 139-141).

Şəxsiyyət olmaq üçün fərd müəyyən inkişaf yolu keçməlidir. Hər bir insan eyni zamanda fərd, hər bir fərd eyni zamanda insandır. Deməli, konkret bir adamı fərd adlandırmaqla onun potensial insan olduğunu təsdiq edirik. Şəxsiyyət olmaq üçün isə fərd müəyyən inkişaf yolu keçməlidir. Burada dialektik surətdə iki proses uzlaşır. Bir tərəfdən, şəxsiyyət ictimai münasibətlər sisteminə daxil olur, digər tərəfdən, o, daha çox müstəqillik avtonomluq kəsb edir. Yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətini fərdiləşmə prosesi təşkil edir. Fərd şəxsiyyətə çevrildikdə, həm də fərdiyyət xüsusiyyətlərini qazanmış olur. Fərdiyyət anlayışı, fərd insanın təkrarolunmaz xüsusiyyətlərinin məcmusu kimi ifadə edilir.

Şəxsiyyətin sosial-psixoloji mahiyyətini təhlil etmək üçün onun tələbat sistemini bilməyin mühüm əhəmiyyəti var. Sosial varlıq olan insan üçün ən mühüm tələbat ünsiyyətə olan tələbatdır. Ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönlü keyfiyyətidir, onun davamlı və bütöv sistem kimi özünü dərk etməsidir, fəaliyyətin əsasıdır. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir... "Ünsiyyət insanlar arasında təmasın yaranması və inkişafı prosesi kimi meydana çıxır" (4, s. 10).

Q.Ananyev qeyd edir ki, "Şəxsiyyət - əməyin, biliyin və ünsiyyətin subyektidir. Şəxsiyyətin sosial – psixoloji mahiyyətinin təhlilində onun müxtəlif qruplara daxil olması, hansı normaları mənimsəməsi, bu qrupların ona təsiri nəticəsində hansı rolu və mövqeni tutması məsələlərinin araşdırılması önəmlidir. Məlumdur ki, insan istər fəaliyyət prosesində, istərsə də digər hallarda müəyyən qrup və kollektiv üzvü olur. Və bu zaman nəzərə almaq lazımdır ki, "insanın bütün davranışı, həyat səviyyəsi, məişəti, sosial varlığı müəyyən mənada onun peşəsindən asılıdır" (5, s. 36).

Prof. R.İ. Əliyev peşə fəaliyyətinin insana təsiri barədə yazır: "Peşə fəaliyyəti həqiqi mənada insanı bütövlükdə dəyişdirə, peşəyə lazım olan formaya sala, keyfiyyətlər tərbiyə edə bilir" (6, s. 37). İnsanlar qrupdakı mövqelərindən asılı olmayaraq sosial normalara əməl edirlər. Sosial normalar insanların münasibətlərini tənzim edir. Hər bir qrupda böyüklə kiçik, rəhbərlə işçi və başqaları arasında münasibətlər sosial normalar vasitəsilə tənzim edilir. Digər funksiya ondan ibarətdir ki, insanlar sosial normalar vasitəsilə başqa adamların davranış və rəftarını qiymətləndirirlər. Beləliklə, hər hansı qrup üzvü olan şəxsiyyət bu normalara riayət edərək nüfuz qazanır və müəyyən rolları icra edir. Hər bir fərd ayrı-ayrılıqda özündən əvvəlki dövrdə yaşamış insanlar kimi bütün ömrü boyu sosial mühitə daxil olur, ona uyğunlaşır. Müəyyən rol və funksiyaları qəbul edir və mənimsəyir. V. Şekspirin sözləri ilə desək: "Bu dünya teatrdır və burada kişilərin və qadınların hamısı aktyordur, onların hər biri müxtəlif rollar oynayırlar." (7, s. 276-278).

Şəxsiyyət müstəqildir. İnsanlar özlərinə layiq gördüyü rollara uyğun davranırlar.

Şəxsiyyətin psixoloji baxımdan təhlili iki problemin təhlilini zəruri edir. Bu problemlərdən biri hər bir şəxsiyyətə xas olan fərdi fərqləri müəyyən etməkdən ibarətdir. Onun ancaq özünə xas olan cəhətləri onun daxili aləmini müəyyənləşdirməyə, hərəkət tərzlərini irəlicədən dərk etməyə, bir sözlə, şəxsiyyəti tanımağa imkan verir. Lakin şəxsiyyətin fərdi keyfiyyətləri ilə yanaşı, ümumi keyfiyyətləri, yəni şəxsiyyətin hamı üçün ortaq olan cəhətləri də vardır. Şəxsiyyətin həm fərdi, həm də ümumi cəhətləri onun inkişafının dinamikasını üzə çıxardır. Psixologiyada şəxsiyyəti sosial-psixoloji aspektdən təhlil edərkən sosial status anlayışının təhlilinə önəm verilir. Sosial status - insanın cəmiyyətdə, konkret kollektivdə rolunu və mövqeyini əks etdirir. Sosial qarşılıqlı təsirlərin gedişatında konkret funksiyaların icra edilməsi üçün hər bir insana müəyyən vəzifələr qoyulur, bununla birlikdə insana müəyyən edilmiş hüquqlarla imtiyazlar, səlahiyyətlər verilir. Bütün bunlara baxmayaraq, insan bu və ya digər funksiyanı yerinə yetirmir, o, qarşılıqlı təsirlərin bu sistemi çərçivəsində müəyyən sosial mövqe tutur. Psixologiya şəxsiyyəti, hər şeydən əvvəl, sosial keyfiyyətli bir sistem kimi səciyyələndirərək təhlil edir. Sosial keyfiyyətlər fərdin ünsiyyət və fəaliyyət prosesinə, müxtəlif münasibətlər sisteminə yiyələnməsi şəraitində təşəkkül taparaq formalaşır. Bütün bunlara əsaslanaraq şəxsiyyəti ictimai münasibətlərin məcmusu kimi səciyyələndirmək olar. Sosial-psixoloji münasibətlər ümumilikdə şəxsiyyətin həqiqi mahiyyətinin əsasını təşkil edir. Belə ki, məhz sosial-psixoloji amilləri təhlil edərək şəxsiyyətin inkişafına təsirini araşdırmaq mümkündür.

**Problemin aktuallığı.** Şəxsiyyət problemi ictimai inkişaf prosesinin bütün mərhələlərində müxtəlif elm sahələrində çalışan alim və mütəfəkkirlərin diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuşdur və müasir dövrdə də öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Məqalənin aktuallığı da onun məhz belə bir vacib bir problemə həsr olunması ilə bağlıdır.

**Problemin elmi yeniliyi.** Məqalədə fərd, fərdiyyət, şəxsiyyət anlayışları məzmuna görə deyil, fərdi varlığın spesifik aspekti kimi əks olunmuşdur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. -Bakı: Nurlan, -2007, -700 s.
2. Əliyev R.İ. Psixologiya tarixi.- Bakı, -2006, -381 s.
3. Xəlilov H.Ə. Uşaq və yeniyetmələrin inkişafının sosial psixoloji məsələləri. -Bakı: “ Şərq-Qərb”, -2012, -224 s.
4. Həmzəyev M.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası, -Bakı: Nurlan, -2007, -178 s.
5. Əskərova Y.B. Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə. Əlizadə yaradıcılığının rolu / Psixol. ü.f.dok. dis./ -Bakı, -2015, -134 s..
6. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında peşəyönümünün rolu. -Bakı: XTN-nin mətbəəsi, -1991,- 46 s.
7. Bayramov Ə.S., Əlizadə Ə.Ə.. Sosial psixologiya. Dərslik. / -Bakı: “Qapp Poliqraf” Korporasiyası, -2003. -356

**E-mail:** *gunes.efendiyeva1953@gmail.com*
**Rəyçilər:** *psixol.ü.fəls. dok., dos.* **N.T. Rzayeva,**
*psixol.ü.fəls. dok..* **Y.B. Əskərova**
**Redaksiyaya daxil olub:** 22.07.2022